**HƏSƏNOV (HASANOV) AZƏRBAYCANA QARŞI**

*(Ərizə № 50757/07)*

MƏHKƏMƏ QƏRARI

22 aprel 2010-cu il

**FAKTLAR**

**I. İŞİN HALLARI**

5. Ərizəçi 1960-ci ildə anadan olub və Bakıda yaşayır.

6. 21 yanvar 1998-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin 19 yanvar 1998-ci il tarixli qərarı əsasında ərizəçiyə Bakıda təzəlikcə tikilmiş yaşayış binasındakı mənzil üçün yaşayış orderi verildi.

7. Eyni zamanda, ərizəçiyə məlum oldu ki, Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Ermənistan hərbi qüvvələrinin işğalı altında olan Şuşa rayonundan məcburi köçkün M. və onun ailəsi həmin mənzildə məskunlaşıb.

8. Ərizəçinin sözlərinə görə, çoxsaylı tələblərinə baxmayaraq, M. mənzili tərk etməkdən imtina edərək bildirdi ki, məcburi köçkündür və yaşamaq üçün başqa yeri yoxdur.

9. 1998-ci ildə naməlum tarixdə ərizəçi Yasamal Rayon Məhkəməsində iddia qaldıraraq məhkəmədən xahiş etdi ki, H. ilə ailəsinin mənzildən çıxarılması barədə qərar qəbul etsin.

10. 23 iyun 1998-ci ildə Yasamal Rayon Məhkəməsi ərizəçinin iddiasını təmin etdi və H. ilə ailəsinin mənzildən çıxarılması barədə qətnamə qəbul etdi. Məhkəmə qərara aldı ki, 21 yanvar 1998-ci il tarixli orderə əsasən ərizəçi mənzilin yeganə qanuni kirayəçisidir və deməli, mənzil M. və onun ailəsi tərəfindən qanunsuz zəbt edilib.

11. Bu qətnamədən apellyasiya şikayəti verilmədi və həmin vaxt qüvvədə olan daxili qanunvericiliyə uyğun olaraq, o, çıxarıldığı tarixdən on gün sonra qüvvəyə mindi. Lakin M. və ailəsi qətnaməni yerinə yetirməkdən imtina etdilər və ərizəçinin müxtəlif dövlət orqanlarına şikayətlərinə baxmayaraq, qətnamə icra olunmadı.

12. 2006-cı ildə naməlum tarixdə ərizəçi və onunla eyni vəziyyətdə olan bir qrup digər şəxs Yasamal Rayon Məhkəməsində iddia qaldıraraq şikayət etdilər ki, Məhkəmə İcraçıları və Məhkəmə Qərarlarının İcrasına Nəzarət İdarəsinin Yasamal rayon şöbəsi ("məhkəmə icraçıları şöbəsi") qətnamələrin icrası üçün tədbir görməyib.

13. 27 dekabr 2006-cı ildə Yasamal Rayon Məhkəməsi bu şikayəti əsassız sayaraq rədd etdi. Ərizəçi bu qətnamədən apellyasiya şikayəti verdi. 2 may 2007-ci ildə Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini ləğv etdi və işin mahiyyəti üzrə ərizəçinin xeyrinə yeni qətnamə çıxardı. Apellyasiya Məhkəməsi qərara aldı ki, məhkəmə icraçıları şöbəsinin hərəkətsizliyi qanunsuz olub və 23 iyun 1998-ci il tarixli qətnamə icra olunmalıdır. H.-nin və digər şəxslərin bu qətnamədən verdikləri kassasiya şikayətindən sonra Ali Məhkəmə Apellyasiya Məhkəməsinin qətnaməsini ləğv etdi və işi yenidən baxılmaq üçün aşağı məhkəməyə göndərdi. 2007-ci il noyabrın 12-də Bakı Appelyasiya Məhkəməsi 27 Dekabr 2006-cı il tarixli qərarı ləğv etdi və mülki icraata xitam verdi. Bakı Appelyasiya Məhkəməsi müəyyən etdi ki, məhkəmə qərarlarının icrası daxili qanunvericiliklə təmin edilməlidir və

həmin məsələ ilə bağlı yeni bir qərar verməyə ehtiyac yoxdur. İşin sənədlərindən aydın görünür ki, tərəflərdən heç biri Appelyasiya Məhkəməsinin qərarını mübahisələndirməyib.

14. 5 iyul 2007-ci ildə M. və onunla eyni vəziyyətdə olan bir qrup digər şəxslər Yasamal Rayon Məhkəməsinə vəsatət verərək 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınmasını xahiş etdi. O, iddia etdi ki, məcburi köçkündür və sözügedən mənzildən savayı yaşamağa başqa yeri yoxdur.

15. 10 iyul 2007-ci ildə Yasamal Rayon Məhkəməsi M.-in vəsatətini təmin etdi və M. məcburi köçkünlərin müvəqqəti məskunlaşması üçün yeni tikilmiş evlərdən birinə köçənə qədər 20 aprel 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınması barədə qərar çıxardı. Məhkəmə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasına dair Dövlət Proqramı"nın təsdiqi haqqında Prezidentin 1 iyul 2004-cü il tarixli sərəncamına ("Prezidentin 1 iyul 2004-cü il tarixli sərəncamı") istinad etdi, həmin sərəncama uyğun olaraq, müvafiq dövlət orqanlarına tapşırıq verilirdi ki, məcburi köçkünlər doğma torpaqlarına qayıdana və ya yeni evlərdə müvəqqəti məskunlaşana qədər mülkiyyət formasından asılı olmayaraq 1992-ci ildən 1998-ci ilədək məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaqlardan və digər tikililərdən çıxarılmamalıdır. Ərizəçinin verdiyi bir sıra şikayətlərdən sonra 3 iyul 2008-ci ildə Yasamal Rayon Məhkəməsi sonradan 14 iyul 2008-ci il tarixində düzəliş etdiyi yeni bir qərar verdi. Məhkəmə M-in iddiasını təmin etdi və 23 iyun 1998-ci il tarixli qərarın icrasının təxirə salınması ilə bağlı göstəriş verdi. İşin sənədlərindən ərizəçinin qərardan şikayət vermədiyi aydın görünür.

16. 2008-ci ildə naməlum tarixdə ərizəçi Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Maliyyə Nazirliyinə və digər dövlət orqanlarına qarşı iddia qaldıraraq 20 aprel 1998-ci il tarixli qətnamənin icra olunmamasına görə kompensasiya tələb etdi. 7 may 2008-ci ildə Yasamal rayonun məhkəməsi ərizəçinin tələbini əsassız sayaraq rədd etdi. 7 iyul 2008-ci ildə Bakı Apellyasiya Məhkəməsi və 10 noyabr 2008-ci ildə Ali Məhkəmə birinci instansiya məhkəməsinin qətnaməsini qüvvədə saxladılar.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK

### A. 8 iyul 1982-ci il tarixli Mənzil Məcəlləsi

17. Azərbaycan vətəndaşları dövlətin və ya ictimai qurumların mülkiyyətində olan mənzillərdən kirayə müqaviləsinin şərtlərinə uyğun olaraq istifadə etmək hüququna malikdirlər (10-cu və 28-ci maddələr). Mənzil verilməsi haqqında qərar yerli icra hakimiyyəti orqanı tərəfindən vətəndaşa yaşayış sahəsi orderi vermək yolu ilə həyata keçirilir (48-ci maddə). Order orada göstərilən mənzilə sahib olmaq (48-ci maddə) və kirayəçi ilə mənzil istismarı təşkilatı arasında yaşayış sahəsinin icarəsinə dair müqavilə bağlamaq (51-ci maddə) üçün yeganə hüquqi əsasdır. Mənzillərdən istifadə hüququ müddətsiz olaraq verilir (10-cu maddə).

### B. Mənzil fondunun özəlləşdirilməsi haqqında 26 yanvar 1993-cü il tarixli Qanun

18. Dövlət və ya ictimai mənzil fondunun mülkiyyətiçisi ilə kirayə müqaviləsi bağlamış şəxslərin yaşadıqları mənzilləri öz şəxsi mülkiyyətinə keçirmək hüququ var (1-ci maddə). Belə özəlləşdirmə könüllü və pulsuzdur (2-ci maddə). Dövlət mənzillərini əvəzsiz özəlləşdirmək hüququndan yalnız bir dəfə istifadə edilə bilər (7-ci maddə).

### C. "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" 21 may 1999-cu il tarixli Qanun

19. "Xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında

başqa yerə köçmüş şəxslər" məcburi köçkün hesab olunurlar (2-ci maddə). Məcburi köçkünlərin müstəqil olaraq müvəqqəti məskunlaşmasına o halda yol verilə bilər ki, bu digər şəxslərin hüquqlarını və qanuni maraqlarını pozmasın. Belə hallar mövcud olduqda müvafiq icra hakimiyyəti orqanları məcburi köçkünlərin həmin yaşayış məntəqəsi daxilində başqa yaşayış sahəsinə köçürülməsini təmin etməlidirlər (5-ci maddə).

**D. Nazirlər Kabinetinin 24 dekabr 1999-cu il tarixli 200 saylı Qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlərin yaşayış üçün yararlı olan və ya yararlı hala salınması mümkün olan yaşayış, inzibati və digər binalarda məskunlaşdırılması Qaydası" ("Məcburi köçkünlərin məskunlaşdırılması Qaydası")**

20. Məcburi köçkünlərin məskunlaşdırılması Qaydasının 4-cü maddəsində aşağıdakılar nəzərdə tutulur:

> *"Məcburi köçkünlərin məskunlaşdıqları ... binaların özəlləşdirilməsi, 1992-1994-cü illərdə məcburi köçkünlərin yaşadıqları mənzillərdən çıxarılmasının qarşısını almaq məqsədilə həmin evlərə aidiyyəti təşkilatlar tərəfindən ayrı-ayrı vətəndaşlara verilən orderlərin hüquqi qüvvəsi müvəqqəti dayandırılır..."*

**E. Nazirlər Kabinetinin 24 dekabr 1999-cu il tarixli 200 saylı Qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlərin başqa yaşayış sahəsinə köçürülməsi Qaydası" (Məcburi köçkünlərin köçürülməsi Qaydası")**

21. Məcburi köçkünlərin köçürülməsi Qaydasının 4-cü maddəsində aşağıdakılar nəzərdə tutulur:

> *"Müvəqqəti məskunlaşmış məcburi köçkünlər digər şəxslərin mənzil hüququnu pozduqda, onlar həmin yaşayış məntəqəsi ərazisində zəruri tələblərə cavab verən başqa yaşayış sahəsi ilə təmin olunurlar".*

**F. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılmasına dair Dövlət Proqramı"nın təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2004-cü il tarixli sərəncamı**

22. Sərəncamda digər məsələlərlə yanaşı müvafiq dövlət orqanlarına tapşırıq verilir ki, məcburi köçkünlər doğma torpaqlarına qayıdana və ya yeni evlərdə müvəqqəti məskunlaşdırılana qədər mülkiyyət formasından asılı olmayaraq 1992-ci ildən 1998-ci ilədək məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaqlardan və digər tikililərdən çıxarılmamalıdır.

**G. 1 sentyabr 2000-ci il tarixli Mülki Prosessual Məcəllə ("MPM")**

23. Mülki işə baxan hakim işdəki tərəflərin ərizəsi əsasında tərəflərin əmlak vəziyyətinə və digər hallara əsasən qətnamənin icrasına möhlət verə və ya qətnaməni hissə-hissə icra etdirə, habelə onun icra üsulunu və qaydasını dəyişdirə bilər (231-ci maddə).

## HÜQUQİ MƏSƏLƏLƏR

## I. KONVENSİYANIN 6-CI MADDƏSİNİN 1-Cİ BƏNDİNİN VƏ 13-CÜ MADDƏSİNİN VƏ KONVENSİYANIN 1 SAYLI PROTOKOLUNUN 1-Cİ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTULARI

24. Ərizəçi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə və 13-cü maddəsinə və Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə istinad edərək Yasamal Rayon Məhkəməsinin 20 aprel 1998-ci il tarixli qətnaməsinin icra olunmamasından şikayət etdi. Konvensiyanın 6-cı maddəsində deyilir:

> *"Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən ... məhkəmə vasitəsilə, ... işinin ədalətli ... araşdırılması hüququna malikdir..."*

Konvensiyanın 13-cü maddəsində deyilir:

> *"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir".*

1 saylı Protokolun 1-ci maddəsində deyilir:

> *"Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.*
> *Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır".*

**A. Şikayətlərin qəbuledilənliyi**

***25. 1. Məhkəmənin zamana görə (ratione temporis) səlahiyyəti***

26. Məhkəmə qeyd edir ki, ərizəçinin xeyrinə çıxarılmış 23 iyun 1998-ci il tarixli qətnamə Konvensiyanın Azərbaycan barəsində qüvvəyə mindiyi tarixdən – 15 aprel 2002-ci ildən əvvəl çıxarılıb. Bununla bağlı Məhkəmə bir daha bildirir ki, onun yalnız Konvensiya Razılığa gələn müvafiq Yüksək Tərəf barəsində qüvvəyə mindikdən sonra baş vermiş hadisələrdən irəli gələn pozuntulara baxmaq səlahiyyəti var (misal üçün *bax: Kazımova Azərbaycana qarşı* (qərardad), ərizə № 40368/02, 6 mart 2003-cü il). Konvensiya Azərbaycan barəsində 15 aprel 2002-ci ildə qüvvəyə minib. Lakin Məhkəmə qeyd edir ki, dövlət orqanlarının 23 iyun 1998-ci il tarixli qətnaməni icra etməməkdə davam etdiklərini nəzərə alsaq, qətnamə hələ də yerinə yetirilməmiş qalır. Buna görə də, davamedici situasiya mövcuddur və bu səbəbdən Məhkəmə ərizənin 15 aprel 2002-ci ildən sonrakı dövrə aid hissəsinə baxmaq səlahiyyətinə malikdir (*bax: İliç Serbiyaya qarşı,* ərizə № 30132/04, 54-cü bənd, 9 oktyabr 2007-ci il; və *Sladkov Rusiyaya qarşı,* ərizə № 13979/03, 16-cı bənd, 18 dekabr 2008-ci il).

***2. Daxili hüquqi müdafiə vasitələri***

27. Hökumət iddia etdi ki, ərizəçi daxili hüquqi müdafiə vasitələrini tükəndirməyib. Konkret olaraq, Hökumət bildirdi ki, ərizəçi dövlət orqanlarının 23 iyun 1998-ci il tarixli qətnaməni icra etməmələrindən daxili məhkəmələrə şikayət edə bilərdi. Bununla bağlı Hökumət iddia etdi ki, məhkəmə icraçıları şöbəsinə qarşı ərizəçinin qaldırdığı işin icraatı Apellyasiya Məhkəməsində hələ də davam edir. Bundan başqa, Hökumət bildirdi ki, ərizəçi daxili hüquqi müdafiə vasitələrini tükəndirməyib, çünki 2008-ci il iyulun 3-də Yasamal Rayon Məhkəməsi 23 iyun 1998-ci il tarixli qərarın icrasının təxirə salınması ilə bağlı göstəriş verdi və ərizəçi həmin qərardan şikayət vermədi.

28. Ərizəçi Hökumətlə razılaşmadı və şikayətlərində israr etdi.

29. Məhkəmə bir daha bildirir ki, daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi haqqında qaydanın əks olunduğu Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndi sübutetmə yükünün bölüşdürülməsini nəzərdə tutur. Daxili hüquqi müdafiə vasitələrinin tükəndirilmədiyini iddia edən Hökumət Məhkəməni inandırmağa borcludur ki, mövcud vasitə sözügedən vaxtda nəzəri və praktiki cəhətdən səmərəli, yəni çatımlı olub və ərizəçinin şikayətləri ilə bağlı onun hüquqi müdafiəsini təmin etmək və uğur qazanması üçün ağlabatan perspektivlər yaratmaq iqtidarında olub (*bax: Akdivar və başqaları Türkiyəyə qarşı*, 16 sentyabr 1996-cı il, 68-ci bənd, *Qərar və qərardadlar toplusu*, 1996-IV; və *Selmuni Fransaya qarşı* [Böyük Palatanın qərarı], ərizə № 25803/94, 76-cı bənd, 1999-V). Məhkəmə daha sonra vurğulayır ki, daxili hüquqi müdafiə vasitələri istər iddia edilən pozuntunun baş verməsinin, istərsə də davam etməsinin qarşısını almaq, yaxud da artıq baş vermiş hər hansı pozuntuya görə adekvat kompensasiyanı təmin etmək baxımından səmərəli olmalıdır (*bax: Kudla Polşaya qarşı* [Böyük Palatanın qərarı], ərizə № 30210/96, 158-ci bənd, 2000-XI).

30. Məhkəmə icraçıları şöbəsinə qarşı icraata gəldikdə, Məhkəmə qeyd edir ki, Hökumət bu icraatın davamedici pozuntuya necə son qoya biləcəyinə, yaxud bu icraatın nəticəsində ərizəçinin hüququnun hansı formada bərpa olunacağına dair hər hansı izahat verməyib. İstənilən halda, Məhkəmə qeyd edir ki, ərizəçi səlahiyyətli orqanların hər hansı qanunsuz hərəkətindən deyil, qətnamənin icra olunmaması faktından şikayət edib. Hətta daxili məhkəmələr davam etməkdə olan icraatda ərizəçinin xeyrinə qərar çıxararlarsa və 23 iyun 1998-ci il tarixli qətnamənin icra edilməməsinin qanunsuz olduğunu qərara alarlarsa, bu qərar da eyni nəticələr doğurar; yeganə nəticə bu olar ki, qətnamənin məhkəmə icraçıları tərəfindən icra tədbirlərinin həyata keçirilməsinə imkan verən qanuni qüvvəsi təsdiqlənər (müvafiq dəyişikliklərlə *bax: Tarverdiyev Azərbaycana qarşı*, ərizə № 33343/03, 47-ci bənd, 26 iyul 2007-ci il; və *Yavorivskaya Rusiyaya qarşı* (qərardad), ərizə № 34687/02, 13 may 2004-cü il). Buna görə də, Məhkəmə hesab edir ki, Hökumətin etirazının bu hissəsinin şikayətə aidiyyəti yoxdur və o, rədd edilməlidir.

31. 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınması ilə bağlı icraata gəldikdə, Məhkəmə qeyd edir ki, bu icraata M.-in vəsatəti əsasında başlanılıb və icraatın məqsədi qətnamənin icraatını təmin etmək və ya sürətləndirmək olmayıb, əksinə, onun məcburi qüvvəsini qeyri-müəyyən müddətə dayandırmaq olub. Məhkəmə qeyd edir ki, Hökumət 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınması ilə əlaqədar olan bu icraatın davamedici pozuntuya necə son qoya biləcəyinə, yaxud bu icraatın nəticəsində ərizəçinin hüququnun hansı formada bərpa olunacağına dair hər hansı izahat verməyib. İstənilən halda, Məhkəmə qeyd edir ki, ərizəçi 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınması ilə bağlı icraatın nəticəsindən deyil, qətnamənin icra olunmaması faktından şikayət edib. Hətta daxili məhkəmələr qətnamənin icrasının təxirə salınması ilə bağlı icraatda ərizəçinin xeyrinə qərar çıxararlarsa və 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınmamalı olduğunu qərara alarlarsa, bu qərar da eyni nəticələr doğurar; yeganə nəticə ondan ibarət olar ki, qətnamənin məhkəmə icraçıları tərəfindən icra tədbirlərinin həyata keçirilməsinə imkan verən qanuni qüvvəsi təsdiqlənmiş olar. Buna görə də, Hökumətin bu etirazının bu şikayətə aidiyyəti yoxdur və o, rədd edilməlidir.

***3. Nəticə***

32. Məhkəmə hesab edir ki, ərizə Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan mənada açıq-aydın əsassız deyil və hər hansı başqa səbəblərə görə qəbul olunmayan sayıla bilməz. Buna görə də o, qəbul olunan elan edilməlidir.

**B. Şikayətlərin mahiyyəti**

***1. Tərəflərin arqumentləri***

33. Hökumət bildirdi ki, Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanda çoxlu sayda məcburi köçkünün olması ucbatından Azərbaycanda məcburi köçkünlərin

məskunlaşdırılması ilə bağlı ciddi problem var. Hökumət qeyd etdi ki, 23 iyun 1998-ci il tarixli qətnamədə M.-in mənzildən çıxarılması barədə göstəriş verilsə də, bu qətnamə icra oluna bilməzdi, çünki sözügedən mənzildə məskunlaşmış məcburi köçkünlərin yerləşdirilməsi üçün başqa mənzil yox idi. Hökumət daha sonra iddia etdi ki, 23 iyun 1998-ci il tarixli qətnamənin icrasının təxirə salınması ucbatından o, daha qüvvədə deyil. Bundan başqa, Hökumət daxili qanunvericiliyin müxtəlif normalarına (yuxarıda "Müvafiq daxili qanunvericilik" bölməsinə bax) istinad edərək iddia etdi ki, məcburi köçkünlər doğma torpaqlarına qayıdana və ya digər evlərdə müvəqqəti məskunlaşana qədər müvəqqəti yaşadıqları yerlərdən çıxarılmamalıdır. Hökumət həmçinin bildirdi ki, məcburi köçkünlərin mənzil probleminin həlli Hökumətin siyasətinin prioritetlərindən biridir və bununla bağlı müvafiq tədbirlər həyata keçirilir.

34. Ərizəçi şikayətlərini yenidən təkrar etdi.

***2. Məhkəmənin qiymətləndirməsi***

**a) Konvensiyanın 6-cı və 13-cü maddələri**

35. Məhkəmə bir daha bildirir ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi hər kəs üçün, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən, məhkəməyə və ya məhkəmə funksiyasını həyata keçirən digər orqana müraciət etmək hüququnu təmin edir; bununla da həmin bənd "məhkəmə araşdırması hüququnu" təsbit edir, məhkəməyə müraciət hüququ, yəni mülki işlərlə bağlı məhkəmədə iddia qaldırmaq hüququ isə bu hüququn bir aspektidir. Lakin iştirakçı dövlətin daxili hüquq sistemi məcburi qüvvəyə malik yekun məhkəmə qərarının tərəflərdən birinin ziyanına olaraq yerinə yetirilməmiş qalmasına imkan versəydi, məhkəmə araşdırması hüququ xəyali hüquq olardı. 6-cı maddənin 1-ci bəndi işdəki tərəflərə verilən prosessual təminatları (ədalətli, açıq və vaxtında aparılan məhkəmə araşdırması) ətraflı təsvir etdiyi halda məhkəmə qərarlarının icrası hüququnu müdafiə etməsəydi, bu, anlaşılmaz bir hal olardı. 6-cı maddəni yalnız məhkəməyə müraciət edilməsi və icraatın aparılması ilə əlaqədar olan maddə kimi şərh etmək, yəqin ki, qanunun aliliyi prinsipinə zidd olan situasiyalara gətirib çıxarardı, halbuki iştirakçı dövlətlər Konvensiyanı ratifikasiya edərkən həmin prinsipə hörmət etməyi öhdələrinə götürüblər. Buna görə də, hər hansı məhkəmə tərəfindən çıxarılmış qərarın icrası 6-cı maddənin məqsədləri üçün "məhkəmə araşdırmasının" ayrılmaz tərkib hissəsi sayılmalıdır (*bax: Hornsbi Yunanıstana qarşı*, 19 mart 1997-ci il tarixli qərar, 40-cı bənd, *Qərar və qərardadlar toplusu*, 1997-II).

36. Məhkəmə qeyd edir ki, məhkəmə qərarının icrasının gecikdirilməsinə xüsusi hallarda haqq qazandırıla bilər. Amma bu gecikdirmə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə qorunan hüququn mahiyyətinə xələl gətirməməlidir (*bax: Burdov Rusiyaya qarşı*, ərizə № 59498/00, 35-ci bənd, AİHM 2002-III). Məhkəmə bir daha bildirir ki, hər hansı fiziki şəxsə qarşı çıxarılmış məhkəmə qərarının icra prosedurlarında dövlət orqanlarının iştirakına görə dövlət məsuliyyət daşıyır. Dövlət orqanları qərarın icrasına görə hərəkət etməyə borcludurlarsa, amma bunu etmirlərsə, onların hərəkət etməməsi dövlətin Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi üzrə məsuliyyətini doğura bilər (müvafiq dəyişikliklərlə *bax: Çebotari və başqaları Moldovaya qarşı*, ərizələr № 37763/04, 37712/04, 35247/04, 35178/04 və 34350/04, 39-cu bənd, 27 yanvar 2009-cu il).

37. Məhkəmə öncə qeyd edir ki, Konvensiya 15 aprel 2002-ci ildə Azərbaycan barəsində qüvvəyə mindiyi tarixdən bəri Yasamal Rayon Məhkəməsinin 23 iyun 1998-ci il tarixli qətnaməsi yeddi il yarımdan artıq vaxt ərzində icra edilməmiş qalıb, beləliklə də ərizəçinin öz mülkiyyət hüquqları ilə bağlı məhkəmə işində uğur qazanmasından yararlanmasının qarşısı alınıb. 15 aprel 2002-ci ilə qədər qətnamə təxminən dörd il ərzində icra olunmayıb.

38. Məhkəmə qeyd edir ki, bu işdə qeyd olunan mübahisə iki fiziki şəxs arasında idi. Lakin 23 iyun 1998-ci il tarixli qətnamədə ərizəçinin yaşayış orderinə malik olduğu mənzildən məcburi köçkünlərin çıxarılması barədə göstəriş yer aldığına görə, fiziki şəxs olan məcburi köçkünlərin qətnaməyə əməl

etməmələri səbəbindən yaranmış situasiya qətnamənin icrasında fiziki şəxs olan ərizəçiyə kömək etmək üçün dövlət tərəfindən tədbir görülməsini zəruri etmişdi. Bu işdə tərəflər etiraz etmirlər ki, ən azı, Yasamal Rayon Məhkəməsi tərəfindən qətnamənin icrasının təxirə salınması barədə 10 iyul 2007-ci il tarixli qərar çıxarılana qədər 23 iyun 1998-ci il tarixli qətnamə daxili qanunvericiliyə əsasən məcburi qüvvəyə malik idi. İşin materiallarından məlum olur ki, baxmayaraq ki, icra prosedurları 3 iyun 1998-ci il tarixli qətnamənin çıxarılmasından 10 gün sonra başlanmalı idi, Hökumət bununla bağlı heç bir tədbir görməyib və bu müddətdə sözügedən qətnamənin icra olunmamasını heç nə ilə əsaslandırmayıb.

39. İcranın təxirə salınması barədə qərara gəldikdə, Məhkəmə qeyd edir ki, o, artıq buna bənzər işə baxıb, həmin işdə mənzildən çıxarılma barədə qətnamənin icrası həmin qətnaməni çıxarmış məhkəmə tərəfindən təxirə salınmışdı (*bax: Akimova Azərbaycana qarşı*, ərizə № 19853/03, 45-50-ci bəndlər, 27 sentyabr 2007-ci il). Məhkəmə həmin işdə müəyyən etdi ki, qətnamənin icrasının təxirə salınması haqqında çıxarılmış qanuni əsası olmayan və əsaslandırılmayan qərar Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsini pozub; Məhkəmə daha sonra müəyyən etdi ki, həmin işdə eyni şikayətə 6-cı maddə üzrə baxmağa ehtiyac yoxdur. Həmin işdən fərqli olaraq, bu işdə qətnamənin icrasının təxirə salınması haqqında qərar qətnamənin qanuni qüvvəyə minərək məcburi xarakter almasından təxminən doqquz il sonra çıxarılıb. Məhkəmə qeyd edir ki, bu işdə qətnamənin icrasının təxirə salınması haqqında qərar Prezidentin 1 iyul 2004-cü il tarixli sərəncamına əsaslanıb. Lakin Məhkəmə qeyd edir ki, Prezidentin sərəncamında daxili məhkəmələrə mənzildən çıxarılma haqqında məhkəmə qərarlarının icrasını qeyri-müəyyən müddətə təxirə salmaq səlahiyyəti verən hər hansı konkret mülki prosessual normalar yoxdur, bu işdə isə məhz bu baş verib. Bundan başqa, 21 may 1999-cu il tarixli Qanunda nəzərdə tutulurdu ki, məcburi köçkünlərin müstəqil surətdə məskunlaşması digər şəxslərin hüquqlarını və qanuni maraqlarını pozarsa, dövlət orqanları onların başqa yerdə məskunlaşmasını təmin etməlidirlər. Müvafiq olaraq, belə məlum olur ki, prezidentin müvafiq sərəncamı daha üstün qüvvəyə malik olan qanunvericilik aktına ziddir; belə olan halda bu Prezident sərəncamına əsaslanaraq qətnamənin icrasını təxirə salmış qərarın qanuniliyi ilə bağlı sual yaranır. Lakin Konvensiyanın 6-cı maddəsinin məqsədləri baxımından bu cür təxirə salmanın daxili qanunvericiliyə əsasən "qanuni" olub-olmaması məsələsi Məhkəmənin araşdırmasının predmeti deyil. Məhkəmə bir daha bildirir ki, iştirakçı dövlətin daxili hüquq sistemi məcburi qüvvəyə malik yekun məhkəmə qərarının tərəflərdən birinin ziyanına olaraq yerinə yetirilməmiş qalmasına imkan versəydi, Konvensiyanın 6-cı maddəsi ilə təmin olunan hüquqlar xəyali hüquq olardı (yuxarıda 35-ci bəndə bax). Bundan başqa, inandırıcı səbəblər göstərilmədən yekun məhkəmə qətnaməsinin rəsmən qeyri-müəyyən müddətə təxirə salınması hüquqi müəyyənlik prinsipinə ziddir.

40. Məhkəmə bu fikirlə razılaşmağa hazırdır ki, bu işdə Azərbaycanda çoxlu sayda məcburi köçkünün olması 23 iyun 1998-ci il tarixli qətnamənin icrasında müəyyən çətinliklər yaradıb. Bununla belə, qətnamə qüvvədə qalıb, amma uzun illər onun icrası üçün dövlət orqanları tərəfindən adekvat tədbirlər görülməyib. Dövlət orqanlarının sözügedən qətnamənin icrası üçün daim və səylə tədbirlər gördükləri sübuta yetirilməyib. Belə olan halda, Məhkəmə hesab edir ki, Hökumət qətnamənin icrasının əhəmiyyətli dərəcədə gecikdirilməsini əsaslandırmaq üçün hər hansı ağlabatan səbəb göstərməyib.

41. Məhkəmə hesab edir ki, qətnamənin icrası üçün zəruri tədbirləri görməməklə dövlət orqanları Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndini bütün faydalı effektlərdən məhrum ediblər (*bax: Burdovun işi* üzrə yuxarıda adı çəkilən qərar, 37-ci bənd). Müvafiq olaraq, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi pozulub.

42. Yuxarıda gəldiyi nəticəni nəzərə alaraq, Məhkəmə Konvensiyanın 13-cü maddəsi üzrə şikayət barədə qərar qəbul etməyə ehtiyac olduğunu hesab etmir, çünki ərizənin bu hissəsinə münasibətdə 6-cı maddəyə *lex specialis* (13-cü maddədəki ümumi müddəanın xüsusi forması) kimi baxmaq olar (misal üçün *bax: Əfəndiyeva Azərbaycana qarşı*, ərizə № 31556/03, 59-cu bənd, 25 oktyabr 2007-ci il; və *Jasiunyene Litvaya qarşı*, ərizə № 41510/98, 32-ci bənd, 6 mart 2003-cü il).

**b) Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi**

43. Məhkəmə bir daha bildirir ki, "iddia tələbi" məcburi hüquqi qüvvəyə malikdirsə, 1 saylı Protokolun 1-ci maddəsində nəzərdə tutulan mənada "mülkiyyət" təşkil edə bilər (*bax: "Strən" yunan neftayırma zavodları və Stradis Andreadis Yunanıstana qarşı*, 9 dekabr 1994-cü il tarixli qərar, 59-cu bənd, A seriyaları, № 301-B).

44. Məhkəmə qeyd edir ki, bu işdə ərizəçi sözügedən mənzilin mülkiyyətçisi deyildi, o, yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş yaşayış orderinə əsasən yalnız kirayəçi hüquqlarına malik idi. Lakin Məhkəmə müəyyən etdi ki, bu cür yaşayış orderi əsasında əldə edilmiş mənzilə iddia tələbi 1 saylı Protokolun 1-ci maddəsinin tətbiq dairəsinə düşən "mülkiyyət" təşkil edir (*bax: Akimova Azərbaycana qarşı* iş üzrə yuxarıda adı çəkilən qərar, 39-41-ci bəndlər). Bu işdə ərizəçinin mənzilə olan kirayə hüququ 23 iyun 1998-ci il tarixli qətnamə ilə tanınıb. Üstəlik, qətnamədə məcburi köçkünlərin onun evindən çıxarılması barədə göstəriş var, beləliklə, ərizəçi sözügedən mənzildən istifadə etmək üçün məcburi hüquqi qüvvəsi olan iddia tələbinə malikdir.

45. Qətnamə qüvvəyə minib və onun icrası üçün məhkəmə icraatları keçirilib ki, bu da ərizəçiyə mənzildən istifadə etmək hüququ verib. Bundan sonra 23 iyun 1998-ci il tarixli qətnamə icrasının təxirə salınmışdır. Məhkəmə hesab edir ki, yeddi il yarımdan artıq vaxt ərzində ərizəçinin bu qətnamənin icrasına nail ola bilməməsi onun 1 saylı Protokolun 1-ci maddəsinin birinci abzasının birinci cümləsində nəzərdə tutulmuş öz mülkiyyətindən maneəsiz istifadə hüququna müdaxilə təşkil edib. Məhkəmə bu müdaxilənin "qanuni" olub-olmadığını araşdırmağı zəruri saymır (yuxarıda adı çəkilən *Akimovanın işi* üzrə qərarla müqayisə et; 44-cü və sonrakı bəndlər), çünki o, hesab edir ki, istənilən halda, bu müdaxilə aşağıdakı səbəblərə görə əsassız idi.

46. Yuxarıda 40-cı bənddə qeyd edildiyi kimi, Məhkəmə bununla razılaşmağa hazırdır ki, dövlət orqanları ərizəçinin xeyrinə çıxarılmış qətnamənin icrasında müəyyən çətinliklərlə üzləşə bilərdilər. Konkret olaraq, mövcud vəziyyət ərizəçinin Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə qorunan öz mülkiyyətindən maneəsiz istifadə hüququ ilə məcburi köçkünlərin mənzillə təmin olunmaq hüququnun balanslaşdırılmasını tələb edirdi. Başqa sözlə, dövlət hakimiyyəti orqanları bir tərəfdən ərizəçinin mülkiyyət hüquqlarını təmin etməli, digər tərəfdən məcburi köçkünlərin hüquqlarına riayət etməli idilər. Belə vəziyyətlərdə cavabdeh dövlətə geniş qiymətləndirmə sərbəstliyi verilməlidir (müvafiq dəyişikliklərlə *bax: Radanoviç Xorvatiyaya qarşı*, ərizə № 9056/02, 49-cu bənd, 21 dekabr 2006-cı il). Lakin dövlətin bu sərbəstliyini həyata keçirməsi Konvensiya standartlarına uyğun gəlməyən nəticələr doğurmamalıdır (*bax: Broniovski Polşaya qarşı* [Böyük Palatanın qərarı], ərizə № 31443/96, 182-ci bənd, AİHM 2004-V).

47. Bu məsələ ilə bağlı Məhkəmə bir daha bildirir ki, bu işdə mövcud olan vəziyyət müvafiq sosial və maliyyə yükünün ədalətli bölüşdürülməsini tələb edir. Digər bir qrupun və ya bütövlükdə cəmiyyətin maraqları nə qədər önəmli olursa-olsun, bu yük konkret sosial qrupun və ya ayrıca fiziki şəxsin üzərinə qoyula bilməz (müvafiq dəyişikliklərlə *bax: Radanoviçin işi* üzrə yuxarıda adı çəkilən qərar, 49-cu bənd; və *Hutten-Çapska Polşaya qarşı* [Böyük Palatanın qərarı], ərizə № 35014/97, 225-ci bənd, AİHM 2006-VIII).

48. Bu işdə onun xeyrinə çıxarılmış daxili məhkəmənin qətnaməsinə uyğun olaraq ərizəçi mənzilindən istifadə etmək hüququna malik idi və bu hüququn məcburi hüquqi qüvvəsi vardı. Parlament tərəfindən qəbul edilmiş qanunvericiliyə uyğun olaraq, bu hüquq dövlət orqanlarının mənzildə məskunlaşmış məcburi köçkünləri alternativ mənzillə təmin etmək vəzifəsinə proporsional idi. Yuxarıda qeyd edildiyi kimi, Hökumət məcburi köçkünlərin və qaçqınların məskunlaşdırılması üçün həyata keçirilən bəzi ümumi siyasətlərə istinad etsə də, konkret olaraq ərizəçinin işində öz vəzifələrini yerinə yetirmək üçün dövlət orqanları tərəfindən hər hansı konkret tədbirlərin görülməsi istər daxili məhkəmə icraatlarında, istərsə də

Məhkəmədəki icraatda müəyyən edilmədi. Bu vəziyyətdə bir neçə il ərzində qətnamənin icrasının təmin edilməməsi və bunun ardınca icranı rəsmən təxirə salmaq üçün daxili məhkəmələrin sonradan Prezidentin 1 iyul 2004-cü il tarixli sərəncamına istinad etmələri ərizəçinin üzərinə həddən artıq fərdi yükün qoyulduğu situasiya ilə nəticələnib.

49. Məhkəmə hesab edir ki, ərizəçinin üzərinə qoyulmuş bu həddən artıq fərdi yükü kompensasiya etməməklə dövlət orqanları cəmiyyətin məcburi köçkünləri müvəqqəti mənzillə təmin etməkdən ibarət ümumi marağı ilə ərizəçinin öz mülkiyyətindən maneəsiz istifadə hüququnun qorunması arasında zəruri və ədalətli balansı gözləməyiblər.

50. Buna görə də, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu baş verib.

## II. KONVENSİYANIN 41-ci MADDƏSİNİN TƏTBİQİ

51. Konvensiyanın 41-ci maddəsində deyilir:

> *"Əgər Məhkəmə Konvensiya ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir".*

### A. Ziyan

#### *1. Maddi ziyan*

52. Ərizəçi maddi ziyana görə 72.944 avro tələb etdi, bunlardan 15.506 avro itirilmiş icarə haqlarına görə və 57.437 avro mənzilin iddia edilən indiki bazar dəyərinə görə istənildi. O, itirilmiş icarə haqlarının məbləğini şəhərin həmin hissəsində yerləşən mənzillərin icarə haqlarının aylıq bazar dəyəri haqqında informasiya əsasında hesablayıb. Həmin informasiya bu məsələlər üzrə ixtisaslaşmış assosiasiyadan əldə edilib.

53. Hökumət iddia etdi ki, ərizəçi mənzilin bazar dəyərinə görə hər hansı kompensasiya tələb edə bilməz. Hökumət daha sonra qeyd etdi ki, o, eyni assosiasiyaya müraciət edərək tələbin qalan hissəsinin, yəni ərizəçinin öz mənzilindən istifadə edə bilməməsi nəticəsində itirdiyi icarə haqları ilə bağlı hissəsinin əsaslarını yoxladığını qeyd etdi və bildirdi ki, ərizəçi bu bənd üzrə maddi ziyana görə 10.376 avro tələb edə bilər. Bununla bağlı Hökumət bildirdi ki, sözügedən bina yarımçıq tikili idi və ərizəçi mənzillə bağlı müəyyən təmir-istismar xərcləri çəkməli idi.

54. Tələbin mənzilin bazar dəyərinə aid olan hissəsinə gəldikdə, Məhkəmə tələbin bu hissəsini rədd edir, çünki o, aşkar edilmiş pozuntu ilə tələbin bu hissəsi arasında hər hansı səbəbiyyət əlaqəsi görmür.

55. Tələbin itirilmiş icarə haqlarına aid olan hissəsinə gəldikdə, Məhkəmə hesab edir ki, tələbin bu hissəsi ilə aşkar edilmiş pozuntu arasında səbəbli əlaqə var və yəqin ki, ərizəçi mənzil üzərində nəzarəti itirməsi nəticəsində maddi ziyana məruz qalıb. Məhkəmə tərəflərin arqumentlərini araşdıraraq və ədalət prinsipi əsasında qərar çıxararaq, hesab edir ki, ziyanın hesablanması üçün Hökumətin təklif etdiyi baza qiyməti ağlabatandır və itirilmiş icarə haqlarına görə ərizəçiyə 10.376 avro təyin edir; bu məbləğdən tutula bilən hər hansı vergi məbləği onun üzərinə əlavə olunmalıdır.

#### *2. Mənəvi ziyan*

56. Ərizəçi mənəvi ziyana görə 25.000 avro tələb etdi.

57. Hökumət ərizəçinin mənəvi ziyana görə tələbini maksimum 1.000 avro məbləğində qəbul etməyə hazır olduğunu bildirdi.

58. Məhkəmə hesab edir ki, ərizəçi, yəqin ki, onun xeyrinə çıxarılmış yekun qətnamənin uzun müddət icra olunmaması nəticəsində müəyyən mənəvi ziyana məruz qalıb. Lakin tələb olunan məbləğ həddən artıqdır. Məhkəmə Konvensiyanın 41-ci maddəsinin tələb etdiyi kimi qiymətləndirməni ədalət prinsipi əsasında apararaq, ərizəçiyə bu bənd üzrə 4.800 avro təyin edir; bu məbləğdən tutula bilən hər hansı vergi məbləği onun üzərinə əlavə olunmalıdır.

59. Bundan başqa, Məhkəmə hesab edir ki, 23 iyun 1998-ci il tarixli qətnamə qüvvədə qaldığına görə, onun icrasını təmin etmək üzrə dövlətin yerinə yetirilməmiş öhdəliyi şübhə altına alına bilməz. Müvafiq olaraq, ərizəçinin hələ də qətnamənin icrasına hüququ var. Məhkəmə bir daha xatırladır ki, 6-cı maddənin pozuntusu ilə bağlı ən münasib kompensasiya ondan ibarət olardı ki, öncədən 6-cı maddənin tələblərinə əməl edildiyi halda, ərizəçi hansı durumda olacaqdısa, vəziyyətin mümkün qədər həmin duruma gətirilməsi təmin edilsin (*bax: Pyersak Belçikaya qarşı* (50-ci maddə), 26 oktyabr 1984-cü il, 12-ci bənd, A seriyaları, № 85). Aşkar edilmiş pozuntunu nəzərə alaraq, Məhkəmə hesab edir ki, həmin prinsip bu işə də şamil olunur. Buna görə də, o, hesab edir ki, Hökumət 23 iyun 1998-ci il tarixli qətnamənin icrasını münasib vasitələrlə təmin etməlidir.

**B. Məhkəmə xərcləri və digər məsrəflər**

60. Ərizəçi həmçinin Məhkəmə qarşısındakı icraatda çəkdiyi məhkəmə xərclərinə və digər məsrəflərə görə 1.500 avro tələb etdi. Bu tələb tərkib elementləri üzrə ətraflı bölünməyib və ya hər hansı sənədlərlə təsdiqlənməyib.

61. Hökumət bu tələbi əsassız hesab etdi.

62. Məhkəmənin presedent hüququna əsasən, ərizəçi məhkəmə xərclərinin və digər məsrəflərin əvəzinin ödənilməsi hüququna yalnız o halda malik olur ki, həmin xərclərin həqiqətən çəkildiyi sübut edilsin və onlar miqdarca ağlabatan olsun. Bu işdə Məhkəmə ərizəçinin hər hansı təsdiqedici sənəd təqdim etməməsi faktını nəzərə alaraq məhkəmə xərcləri və digər məsrəflərlə bağlı tələbi rədd edir.

**C. İcranın gecikdirilməsinə görə faiz**

63. Məhkəmə məqsədəuyğun hesab edir ki, icranın gecikdirilməsinə görə faiz Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə əsaslanmalıdır və onun üzərinə daha üç faiz əlavə olunmalıdır.

**BU ƏSASLARA GÖRƏ MƏHKƏMƏ YEKDİLLİKLƏ:**

1. Ərizəni qəbul olunan *elan edir*;

2. *Qərara alır ki,* Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi pozulub;

3. *Qərara alır ki,* Konvensiyanın 13-cü maddəsi üzrə şikayəti araşdırmağa ehtiyac yoxdur;

4. *Qərara alır ki,* Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi pozulub;

5. *Qərara alır ki,* cavabdeh dövlət Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq bu qərarın qəti qərara çevrildiyi tarixdən sonra üç ay ərzində 20 aprel 1998-ci il tarixli qətnamənin icrasını münasib vasitələrlə təmin etməlidir;

6. *Qərara alır ki:*

a) cavabdeh dövlət Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq bu qərarın qəti qərara çevrildiyi tarixdən sonra üç ay ərzində ərizəçiyə maddi ziyana görə 10.376 (on bir min qırx iki) avro və mənəvi ziyana görə 4.800 (dörd min səkkiz yüz) avro ödəməlidir; ərizəçidən tutula bilən hər hansı vergi məbləği bu məbləğlərin üzərinə əlavə olunmalı və onlar ödəniş tarixində tətbiq edilən məzənnə üzrə yeni Azərbaycan manatına çevrilməlidir;

7. Əvəzin ədalətli ödənilməsi haqqında ərizəçinin qalan tələblərini *rədd edir*.